**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№367/4** **30 iyul 2024-cü il**

**“2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı” barədə**

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 6.1-ci bəndinin icrası ilə əlaqədar Kadr hazırlığı idarəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış “2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. iki həftə müddətində “2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı”nın Palatanın üzvlərinə çatdırılması təmin edilsin;

2.2. iki həftə müddətində təsdiq edilmiş proqrama müvafiq olaraq auditorların ixtisasartırma kursunu aparacaq fiziki və (və ya) hüquqi şəxslər Müsabiqə Komissiyası ilə birlikdə müəyyən edilsin;

2.3. Bir ay müddətində ixtisasartırma kursunun aparılması üçün müsabiqə yolu ilə seçilmiş şəxslərlə birlikdə hər bir mövzu üzrə tədris olunan mövzuların və tədris qrafikinin, təklif olunan ədəbiyyat siyahısının müəyyənləşdirilməsi təmin edilsin;

2.4. 2024-cü il üzrə auditorların ixtisasartırma kursunu tədris edən müəllimlər tərəfindən cari ilin 20 avqust tarixinədək tədris materiallarının təqdim olunması təmin edilsin.

3. Bu qərarın və “2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı”nın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**